# REGIONLARDA SAHIBKARLIQ EKOSISTEMININ INKIŞAFINDA UNIVERSITETLƏRIN ROLU

*Hüseynova Emiliya Yəhya qızı, iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent*
*Mustafazadə Elmir Alim oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolu məsələsi son illər kifayət qədər diqqət mərkəzindədir. Bunun bir neçə səbəbi var və bu səbəblər həm iqtisadi, həm də sosial aspektdən önəmlidir. Regionlarda universitetlər sahibkarlıq ekosistemlərinin inkişafında mərkəzi mövqe tuturlar. Universitetlər regionlarda təhsil, təlim və innovasiya mərkəzləri kimi çıxış edərək yerli iqtisadiyyatın canlanmasında mühüm rol oynayırlar. Universitetlər tərəfindən dəstəklənən texnologiyalar və innovasiyalar yerli iqtisadiyyatların yaranmasına səbəb olur və yeni biznes modellərinin yaradılmasına imkan verir. Regionlarda universitetlər texnoparkların, inkubatorların, akseleratorların və digər mülkiyyət infrastrukturlarının yaradılmasına rəhbərlik edirlər. Bu qurumlar regionlarda mülkiyyətçiliyin inkişafı üçün lazımi şərait yaradır. Universitetlər texnoparklar və inkubatorlar vasitəsilə tələbələrə və yerli sakinlərə iş yerləri, texnologiya dəstəyi və maliyyə resursları təqdim edir. Universitetlərdə yaradılmış innovasiya mərkəzləri və inkubatorlar startapların sürətli inkişafı üçün mühit yaradır və regiona xarici investorların cəlb edilməsinə kömək edir. Universitetlər regionlarda iqtisadi inkişafda iştirak edir və sosial inkişafın katalizatoru kimi mühüm rol oynayırlar. Regionlarda ali məktəblərin elmi-texniki fəaliyyəti cəmiyyətin təhsil və inkişaf səviyyəsini yüksəldir, yerli əhali arasında sosial inkişafa töhfə verir.

Elmi tədqiqatlar regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolunu artırmaq üçün vacib bir vasitədir. Universitetlərin sahibkarlarla birgə fəaliyyətlərinin düzgün qiymətləndirilməsi, inovativ ideyaların inkubasiyası və onun generasiyasının aşkar edilməsi və onların inovasiya infrastrukturlarında əsaslandırılmış tədqiqatlar vasitəsilə akselerasiyası. Bu tədqiqatlar sahibkarlıq ekosistemində, biznes strategiyasına və ümumiyyətlə, fəaliyyət planına əsaslı təsir göstərir.

Elmi tədqiqatlar hər zaman müəyyən nəzəri əsaslara söykənir. Universitet – Sahibkar iş birliyinə tətbiq edilən tədqiqatlar, maliyyə idarəetməsi, risk idarəçiliyi və hüquqi tənzimləmə kimi sahələrə dair nəzəriyyələrə əsaslanır. Bu nəzəriyyələr regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolunun mahiyyətini və funksiyalarını anlamağa kömək edir, eyni zamanda sahibkarlıq proseslərinin inkişafına dair innovativ yanaşmaların tətbiq edilməsini təmin edir.

Sosial–iqtisadi tədqiqatlar sahibkarlıq fəaliyyəti ilə bağlı problemləri və bu problemlərin həll yollarını müəyyən etmək üçün istifadə olunur. Universitet - Sahibkar münasibətləri sosial tədqiqatların tətbiqi, universitetlər və sahibkarlarla effektiv əlaqələr qurmaq, onların təcrübə və biliklərini analiz etmək məqsədi daşıyır. Belə tədqiqatlar sahibkarlar arasında kommunikasiya mexanizmlərinin

təkmilləşdirilməsinə, universitetlərin davranış modellərinin təkmilləşdirilməsinə imkan yaradır.

Elmi tədqiqatların əsas məqsədi regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolunun şəffaf və effektiv şəkildə aparılmasını təmin etməkdir. Bu tədqiqatlar vasitəsilə universitet – sahibkar münasibətlərinin nəticələrini obyektiv şəkildə dəyərləndirə bilərlər. Elmi tədqiqatlar bir neçə növdə olur: kəmiyyət tədqiqatları, keyfiyyət tədqiqatları, təhlil tədqiqatları və müqayisəli tədqiqatlar. Hər bir növün sahibkarlıq ekosisteminin fəaliyyətində xüsusi rolu vardır və bu növlər müxtəlif metod və yanaşmalarla həyata keçirilir.

Sosial araşdırma metodlarının öyrənilməsi, universitetlərdə sahibkarlıq yönümlü tədbirlər sosial sahibkarlığın inkişafında obyektivlik və dəqiqliyini təmin etmək üçün zəruridir. Bu yanaşmalar regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolunu daha da təkmilləşdirilməsinə şərait yaradır. Elmi tədqiqatlar və sosial araşdırma metodlarının effektiv tətbiqi sayəsində universitetlər fəaliyyətlərini optimallaşdıraraq sahibkarlıq ekosistemi vasitəsi ilə sosial problemlərə dolayı yollarla təsirini artıra bilərlər.

Elmi tədqiqatın uğurlu və effektiv olması üçün onun düzgün mərhələlərə bölünməsi vacibdir. Tədqiqat mərhələləri sistematik şəkildə planlaşdırılmalı və hər bir addım dəqiq şəkildə həyata keçirilməlidir. Regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolunun araşdırılması tədqiqatları prosesin düzgün qurulmasına və nəticələrin obyektiv olmasına şərait yaradır.

Tədqiqatın başlanğıc mərhələsi mövzu seçimidir. Mövzunun aktuallığı, tədqiqatın effektivliyini və onun nəticələrinin əhəmiyyətini müəyyən edir. Regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolu mövzusu, bu sahədə mövcud problemlərin həlli və inkişaf perspektivlərinin təhlili baxımından mühüm əhəmiyyət daşıyır. Praktiki olaraq, mövzu seçimi zamanı təklif formasının hazırlanması tələb olunur ki, bu da tədqiqatın planının müəyyən edilməsinə kömək edir.

Tədqiqatın uğurlu olması üçün onun məqsədi və tədqiqat sualları dəqiq şəkildə müəyyənləşdirilməlidir. Bu mərhələdə, tədqiqatın əsas məqsədi – sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolu və bu proseslərin tənzimlənməsi qaydalarını təkmilləşdirməkdir. Tədqiqat sualları isə tədqiqatın aparılacağı çərçivəni və auditoriyanın diqqətini cəmləyəcəyi mövzuları əhatə edir. Suallar, tədqiqatın istiqamətini müəyyən edərək elmi araşdırmaların dərinləşməsinə və konkret nəticələr əldə olunmasına kömək edir.

Tədqiqatın planlı şəkildə həyata keçirilməsi üçün tədqiqat qrafiki hazırlanmalıdır. Qrafik, tədqiqatın başlanğıc mərhələsindən sona qədər olan bütün addımların vaxtında və ardıcıl şəkildə həyata keçirilməsini təmin edir. Bu, həm də tədqiqat prosesinin idarə edilməsini asanlaşdırır və iş yükünün düzgün bölüşdürülməsinə imkan yaradır.

Regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolunun tədqiqi zamanı, bu qrafik çərçivəsində nəzərdə tutulan tədbirlərin və mərhələlərin ardıcıllığı qurulmalı və ona riayət olunmalıdır. Bu mərhələlər tədqiqatın strukturunu və istiqamətini dəqiq şəkildə müəyyən etməklə, sahibkarlıq ekosistemində universitetlərin roluna dair dərin analiz və obyektiv nəticələr əldə etmək üçün əsas

yaradır. Hər bir mərhələ diqqətlə planlaşdırılmalı və həyata keçirilməli, nəticədə tədqiqatın etibarlılığı və obyektivliyi təmin edilməlidir.

Tədqiqatın strategiyası tədqiqatın məqsədlərinə nail olmaq üçün hansı yanaşmaların və metodların istifadə ediləcəyini müəyyən edir. Regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolu proseslərinin təhlili və tənzimlənməsi qaydalarının araşdırılması zamanı tədqiqatın strukturlu və planlı şəkildə aparılması vacibdir. Bu strategiyalar vasitəsilə tədqiqatın əsas suallarına cavab tapılır və nəticələrin obyektivliyi təmin olunur.

Birdəfəlik tədqiqatlar adətən müəyyən bir dövrü əhatə edir və qısa müddətli analizlər üçün istifadə olunur. Bu tədqiqatlarda məqsəd, müəyyən bir anda əldə edilən məlumatlar əsasında sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolunun cari vəziyyətini və onların effektivliyini qiymətləndirməkdir. Bu yanaşma sayəsində sahibkarlıq ekosisteminin inkişafında universitetlərin yanaşma sistemində olan problemlər aşkar edilir və tənzimləmə mexanizmləri üzərində işləmək mümkün olur.

Təkrar tədqiqatlar bir neçə dövr ərzində aparılır və məlumatların zamanla necə dəyişdiyini göstərir. Regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolunun təkmilləşdirilməsi prosesində təkrar tədqiqatlar xüsusilə vacibdir, çünki bu, universitetlərin maliyyə göstəricilərinin və sahibkarlıq ekosisteminin effektivliyinin illər ərzində necə inkişaf etdiyini və dəyişdiyini izləməyə imkan yaradır. Bu metodla aparılan tədqiqatlar, tənzimləmə strategiyalarının uzunmüddətli təsirini qiymətləndirməyə kömək edir.

Longityud tədqiqatlar uzun müddət ərzində aparılan tədqiqatlardır və mülkiyyət ekosistemi proseslərində uzunmüddətli dəyişikliklərin və inkişafların qiymətləndirilməsini təmin edir. Bu strategiya mülkiyyət sistemlərinin təkamülünü izləmək və onun sahibkarlıq ekosisteminə təsirini qiymətləndirmək üçün geniş imkanlar yaradır. Longityud tədqiqatlar vasitəsilə regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolu mexanizmlərinin necə dəyişdiyini və hansı tədbirlərin effektiv olduğunu analiz etmək mümkündür.

Kohort tədqiqatlar universitetlərin sahibkarlıq fəaliyyətləri üzərindəki təsirini izləmək və təhlil etmək üçün faydalıdır. Belə bir tədqiqatı necə tətbiq edilməsi haqqında bəzi yanaşmalar zəruridir. İlk olaraq tədqiqat üçün müəyyən bir qrupu seçə bilərik, məsələn, müəyyən bir universitetdə sahibkarlıq təlimi və ya inkubasiya mərkəzlərindən yararlanan tələbələr, məzunlar və ya regionda yaşayan və universitetlə əməkdaşlıq edən kiçik sahibkarlar. Sonram həmin Universitetlərin regionda sahibkarlıq fəaliyyətinə necə təsir göstərdiyini uzunmüddətli izləmə yolu ilə ölçə bilərik. Bu nəticələr universitetlərin sahibkarlıq fəaliyyətləri üçün regionda hansı növ dəstəyin daha təsirli olduğunu və hansı sahələrdə inkişaf etdirilməli olduğunu müəyyən etmək üçün istifadə edilə bilər.

Bu strategiyalar tədqiqatın istiqamətini və dərinliyini müəyyən edərək, regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolu proseslərinin və tənzimləmə qaydalarının obyektiv və effektiv şəkildə araşdırılmasına imkan yaradır.

Elmi tədqiqatlarda keyfiyyətin qiymətləndirilməsi tədqiqat prosesinin və nəticələrinin etibarlılığını təmin etmək üçün vacibdir. Regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolunun araşdırılmasında, keyfiyyətin

qiymətləndirilməsi, mülkiyyət ekosisteminin toxunulmazlığı və obyektiv olmasını təmin etmək məqsədi daşıyır. Bu hissədə tədqiqatın keyfiyyətini ölçən metodlar və meyarlar izah olunur.

Qiymətverici tədqiqatlar mövcud sahibkarlıq proseslərini və onların tətbiq metodlarını qiymətləndirir. Bu tədqiqatlar vasitəsilə Regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolunun effektivliyi və obyektivliyi dəyərləndirilir. Qiymətləndirmə prosesində istifadə olunan alətlərin və metodların düzgün tətbiq olunub-olunmadığını aşkar etməyə imkan verir.

Müşahidə tədqiqatın əsas komponentlərindən biridir və onun keyfiyyətini təyin etmək üçün müxtəlif kateqoriyalara bölünür. Sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolunun təhlili zamanı müşahidə kateqoriyaları vasitəsilə konkret prosesləri və fəaliyyətləri izləyərək, obyektiv nəticələr əldə edirlər. Bu kateqoriyalar vasitəsilə müşahidə olunan hadisələrin və proseslərin təsviri aparılır və onların düzgün qiymətləndirilməsi təmin olunur.

Müqayisə xarakterli tədqiqatlar müxtəlif ölkələrdə tətbiq olunan sahibkarlıq metodlarının effektivliyini müqayisə etməklə, hansı metodun daha effektiv olduğunu müəyyən edir. Bu tədqiqatlar vasitəsilə universitetlərin müxtəlif fəaliyyət sahələrində istifadə olunan inovasiya mexanizmlərinin uyğunluq dərəcəsi və təsirləri araşdırılır.

Çoxsaylı metod yanaşması tədqiqatın keyfiyyətini artırmaq və nəticələrin obyektivliyini təmin etmək üçün bir neçə metodun tətbiqini nəzərdə tutur. Bu yanaşma, tədqiqat prosesində müxtəlif məlumat mənbələrinin və metodların istifadəsini təmin edərək, daha dəqiq və obyektiv nəticələrin əldə olunmasına kömək edir.

Tədqiqatın keyfiyyətini təmin etmək üçün istifadə olunan ölçmə mexanizminin etibarlılığı mühüm əhəmiyyət daşıyır. Regionlarda sahibkarlıq ekosisteminin inkişafında universitetlərin rolunu araşdırarkən istifadə olunan ölçmə mexanizmləri, universitet – sahibkarlıq münasibətləri proseslərinin dəqiqliyini və düzgünlüyünü təsdiqləmək məqsədi daşıyır. Bu mexanizmlər, tədqiqatın nəticələrinin etibarlılığını artırır və obyektiv qiymətləndirmə təmin edir.

Ədəbiyyat:

1. “Azərbaycan ali təhsil müəssisələrində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi” (ENGAGE) mövzusunda Erasmus+ layihəsi çərçivəsində növbəti təlimlərə start verilib. URL: https://mdu.edu.az/azrbaycan-ali-təhsil-mussislərində-davamli-sahibkarliq-ekosisteminin-gucləndirilməsi-engage-movzusunda-erasmus-layihəsi-cərciv/

2. “Sahibkarlıq universiteti” yaxşı ideyadır. URL: https://sherg.az/arxiv/48455

3. Azərbaycan universitetləri Estoniyanın sahibkarlıq təhsili və startap ekosistemini öyrənirlər. URL: https://ted.az/az/view/news/52295/azerbaycan-universitetleri-estoniyanin-sahibkarliq-tehsili-ve-startap-ekosistemini-oyrenirler-fotonbsp

4. “Təhsilə baxış dəyişir” – TİF sədri ilə MÜSAHİBƏ. URL: https://xeberler.az/new/details/tehsile-baxis-deyisir---tif-sedri-ile-musahibe--31455.htm